# EKOLOGİYA VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏLƏRİNDƏ AZƏRBAYCAN – GÜRCÜSTAN ƏMƏKDAŞLIĞI

**Samirə Həbibbəyli**

*AMEA-nın Qafqazşünaslıq İnstitutu, Bakı*
*samira.habibbayli@gmail.com*

Azərbaycan XX əsrin sonlarında dövlət müstəqilliyini əldə etdikdən sonra çətin və keşməkeşli də olsa, uğurlu yol keçərək hazırkı inkişaf səviyyəsinə çatmışdır. İqtisadi tənəzzüldən yüksək inkişafa uzanan bu yolun qət edilməsində təbii sərvətlərin, xüsusilə də karbohidrogen ehtiyatlarının rolu danılmazdır.

Ekologiya və ətraf mühitin qorunması sahələrində digər dövlətlərlə, xüsusilə də qonşu ölkələrlə qurulan əlaqələr olduqca əhəmiyyətlidir. Belə ki, Azərbaycan Respublikasının əsas ekoloji problemlərinə Xəzər dənizinin, su ehtiyatlarının və obyektlərinin, o cümlədən transsərhəd çayların çirkləndirilməsi aiddir ki, bu problem də birbaşa qonşu ölkələrin təsiri ilə əlaqəlidir. Bu baxımdan problemlərin aradan qaldırılması və yaxud fəsadlarının minimuma endirilməsi üçün qonşularla qurulan əlaqələr xüsusi əhəmiyyət kəsb edir. Qonşu Gürcüstan və Rusiya Federasiyası ilə bu səpkidə münasibətlər mövcud olsa da, su ehtiyatlarının çirklənməsinə əsas səbəbkarlardan biri Ermənistanla məlum səbəblərdən əlaqələr mövcud deyil.

Azərbaycan və Gürcüstan arasındakı münasibətlər bütün istiqamətlər üzrə inkişaf etmişdir. İki xalqın minilliklərdən bəri davam edən qonşuluq və dostluq əlaqələri mövcud olmuşdur. Bu münasibətlər istər hər iki dövlətin ilk dəfə müstəqillik qazandığı XX əsrin əvvəllərində, istərsə də müstəqilliyin yenidən bərpa edildiyi XX əsrin sonlarından etibarən qorunub saxlanılmış, daha da dərinləşdirilmişdir.

Azərbaycan Respublikası ilə Gürcüstan arasında diplomatik əlaqələr 1992-ci ildə qurulmuşdur. Həmin ildən etibarən ikitərəfli əlaqələrin bərpa edilməsi üzrə müəyyən işlər görülsə də, münasibətlərdə dönüş Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə yaranmışdır. 1993-cü ildən etibarən iki dövlət arasında siyasi, iqtisadi münasibətlərdə olduğu qədər, humanitar, ekologiya və ərtaf mühitin mühafizəsi sahələrində də əməkdaşlıq üçün səy göstərilmiş, müvafiq sahələr üzrə qanunvericilik bazasının formalaşdırılması üçün əməli işlər görülmüşdür. Heydər Əliyevin 1996-cı ildə Gürcüstana səfəri zamanı imzalanmış "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında müqavilə" əməkdaşlığın bir sıra istiqamətləri, o cümlədən ekologiya və ətraf mühitin mühafizəsi üzrə dövlətlərarası yol xəritəsi də hesab edilə bilər. 1997-cı il fevralın 18-də E.Şeverdnadzenin Bakıya səfəri zamanı imzalanmış "Ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında hökumətlərarası saziş" bu sahədə olan əhəmiyyətli normativ hüquqi sənədlərdən biridir.

Azərbaycanın daxili və xarici siyasətində, eləcə də sözügedən sahələrdə Ümummilli Lider Heydər Əliyevin dəst-xətti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir. Sonrakı illərdə Gürcüstanla əldə edilmiş razılaşmalarda, imzalanmış sənədlərdə ekologiya və ətraf mühitin mühafizəsi məsələləri xüsusi vurğulanmışdır. Belə ki, 18 may 2004-cü ildə Bakıda imzalanmış Azərbaycan Respublikası və Gürcüstanın Birgə Bəyannaməsində, eləcə də 10 sentyabr 2004-cü il tarixində imzalanmış Birgə Kommünikedə tərəflərin ikitərəfli, regional və qlobal səviyyələrdə ətraf mühitin mühafizəsi məsələləri üzrə qarşılıqlı fəaliyyətini artıracaqları öz əksini tapmışdır. 2015-ci noyabrın 5-də Azərbaycan və Gürcüstan prezidentlərinin imzaladıqları Birgə Bəyannamədə də ekologiya və ətraf mühitin mühafizəsi məsələlərində birgə səylərin davam etdiriləcəyi ifadə olunmuşdur.

Ekoloji tarazlığın qorunması, təbii ehtiyatlardan səmərəli istifadə, kirliliyin qarşısının alınması ümumbəşəri problemlər kimi dünya çapında həlli vacib olan məsələlərdir. Bu nöqteyi-nəzərdən yaşıl enerjidən istifadə öz aktuallığını gün keçdikcə artırmaqdadır. Azərbaycan Respublikası və Gürcüstan digər sahələrdə olduğu kimi, bu yeni istiqamətdə də uğurla əməkdaşlıq edirlər. Belə ki, 2022-ci Rumıniyanın paytaxtı Buxarestdə imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş" təkcə iki qonşu ölkənin, regionun deyil, Avropanın da bərpa olunan resurslar hesabına enerji təhlükəsizliyinin təmin olunmasına töhfə verməklə yanaşı, ətraf mühitin mühafizəsi məsələlərində əhəmiyyətli rol oynayacaq.